


**Yaranma tarixi – 26.11.1991**
**Ərazisi –1458 км²**
**Əhalinin sayı – 44112 nəfər**
**O cümlədən:**
**Azərbaycanlı əhalisi 12747 nəfər**
***(01yanvar 2021-ci il tarixə)***
**Əhalinin sıxlığı -1 kv.km 30 nəfər**
***(01 yanvar 2021-ci il tarixə)***

## 2020-ci ilin yanvar-dekabr aylarında Xocavənd Rayonunda sosial iqtisadi inkişafa dair təhlil

## M Ə R U Z Ə S İ

**Ümumi məhsul buraxılışı-** 2020-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 14313,3 min manat təşkil etmişdir. Məhsul xidmətlərinin 13145,8 min manat (91,9%) istehsal sahələrinin, 1167,5 min manat (8,1%) isə xidmət sahələrinin payına düşmüşdür. 2021-ci ilin 01 yanvar vəziyyətinə kənd təsərrüfatı sahəsində 13145,8 min manatlıq, sənayedə 647,7 min manatlıq, nəqliyyat və anbar təsərrüfatında göstərilmiş xidmətlər üzrə 519,8 min manatlıq məhsul istehsal olunmuşdur. İqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmində keçən ilin müvafiq dövrünə nisbətən 2,7% artım müşahidə olunmuşdur. Artımın əsas səbəbi fəaliyyətdə olan müəssisələrin hesabata cəlb edilməsi olmuşdur.

İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Umumi mehsul buraxilisi**
**(min manatla)**




**Sənaye və tikinti müəssisələri üzrə-** Rayonun sənaye müəssisələri tərəfindən yanvar-dekabr ayları ərzində istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 647,7 min manat olmuşdur. 2021-ci ilin 01 yanvar vəziyyətinə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 91 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əmək haqqı 345,4 manat olmuşdur.

Sənaye və tikinti xaraktrli müəssisələrinin iş və xidmətlərin həcmi diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.




**Nəqliyyat və anbar təsərrüfatları üzrə-** 2020-ci ilin yanvar-dekabr aylarında rayonda nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 519,8 min manat olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 36 nəfər olmaqla orta aylıq nominal əmək haqqı 268,0 manat təşkil etmişdir.




**Ticarət statistikası üzrə-** 2020-ci ilin yanvar-dekabr aylarında rayonda nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 2526,5 min manat olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 51 nəfər olmaqla orta aylıq nominal əmək haqqı 388,2 manat təşkil etmişdir.

**Kənd təsərrüfatı üzrə-** Kənd təsərrüfatında 2020-ci il ərzində məhsul buraxılışı 13145,8 min manat təşkil etmişdir. O cümlədən; 7825,8 min manat bitkiçilikdə, 5320,0 min manat heyvandarlıqda olmaqla diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Kənd təsərrüfatı xarakterli**
**iş və xidmətləri min manatla**




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik işləri proqramına uyğun olaraq, 2020-ci il iyun ayının 1-i vəziyyətinə əkin sahələrinin qəti uçotu keçirilmişdir. Əkin sahəsi və məhsul yığımı haqqında məlumatların işlənilməsi zamanı hesabat dövründən sonra baş vermiş dəyişiklikləri (artma və ya azalmanı) nəzərə almaqla həmin uçotun məlumatları əsas götürülmüşdür. Xocavənd rayonunun iqtisadiyyatında taxılçılıq, tərəvəzçilik, və meyvəçilik aparıcı rol oynayır. Bununla yanaşı rayonun təsərrüfatlarında ərzaq üçün bostan bitkiləri və kartof istehsal edilmişdir.

Hər il olduğu kimi 2020-ci il iyun ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə cari ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin qəti uçotu keçirilmişdir. Keçən ilin payızında suvarılan və suvarılmayan sahələrdə dən və yaşıl yem üçün əkin işləri aparılmışdır. Cari ilin məhsulu üçün rayonda 9216.2 hektar sahədə əkin işləri aparılmışdır. Əkin sahələri keçən ilə nisbətən 213.9 hektar və ya 2.4% artmışdır. 2020-ci il 01 iyun vəziyyətinə rayon ərazisində aparılmış əkin sahəsini 7974.6 hektar buğda, 649.2 hektar arpa, 30.3 hektar kartof, 130.1 hektar tərəvəz, 32.6 hektar ərzaq üçün bostan bitkiləri, 399.4 hektar cari və keçmiş illərdə əkilmiş çoxillik otlar olan yonca sahəsi təşkil edir.

Keçən illə müqayisədə əkin sahələrinin strukturu aşağıdakı kimi olmuşdur.

| | | 2019 | 2020 | Fərq | |
|---|---|---|---|---|---|
| | | | | + - | % |
| **1** | **Cəmi əkin** | **9002.3** | **9216.2** | **+213.9** | **102.4** |
| | O cümlədən payızlıq dənlilər | 8400 | 8623.8 | +223.8 | 102.6 |
| | Ondan Buğda | 8150 | 7974.6 | -175.4 | 97.8 |
| | Arpa | 250 | 649.2 | +399.2 | 259.6 |
| **2** | **Kartof tərəvəz və bostan bitkilərinin cəmi** | **185.8** | **193** | **+7.2** | **103.8** |
| | Kartof | 28.1 | 30.3 | +2.2 | 107.8 |
| | Tərəvəz | 126.7 | 130.1 | +3.4 | 102.7 |
| | Bostan bitkiləri | 31 | 32.6 | +1.6 | 105.1 |
| **3** | **Çox illik otların cəmi** | **416.5** | **399.4** | **-17.1** | **95.9** |
| | Cari ilin çoxillik otları | 30.6 | 20 | -10.6 | 65.3 |
| | Keçmiş illərin çoxillik otları | 385.9 | 379.4 | -6 | 98.3 |

Əkin sahələrinin strukturu ümumi əkin sahəsinə nisbətən faizlə aşağıdakı diaqrammada öz əksini tapmışdır




Kənd təsərrüfatı bitkiləri məhsullarının toplanışı aşağıdakı kimi olmuşdur.

| Kənd təsərrüfatı bitkilərinin adı | Əkin sahəsi, hektar | Yığımsahəsi, hektar | İlkin çəkidə məhsul yığılmışdır, ton | Təmizlənmədən sonrakı çəkidə məhsul, ton | Məhsuldarlıq, sentner/hektar | |
|---|---|---|---|---|---|---|
| | | | | | ilkinçəkidə | təmizlənmədən sonrakı çəkidə |
| Keçən ilin payızındadənvə yaşılyemüçünpayızlıqlar əkilib | 8623.8 | | | | | |
| Yazlıq əkinlərin səpininin axırına payızlıqların salamat qalmış sahələri dən üçün | 8623.8 | 8623.8 | 139915 | 139915 | 16.2 | 16.2 |
| Payızlıqbuğda | 7974.6 | 7974.6 | 127584 | 127584 | 16 | 16 |
| Payızlıqarpa | 649.2 | 649.2 | 12331 | 12331 | 19 | 19 |

| Kənd təsərrüfatı bitkilərininadı | Əkin sahəsi, hektar | Yığıms ahəsi, hektar | İlkin çəkidə məhsul yığılmışdır, ton | Məhsuldarlıq sentner/hektar |
|---|---|---|---|---|
| Kartofcəmi | 30.3 | 30.3 | 278.7 | 92 |
| Açıq torpaqlarda bütün növ tərəvəz (toxumluq üçün bir illik və iki illik bitkilərdən başqa) – cəmi | 130.1 | 130.1 | 2669.2 | 205.1 |
| Xiyar | 13.9 | 13.9 | 140.4 | 101 |
| Pomidor | 15.1 | 15.1 | 147.9 | 98 |
| Başsoğan | 83.8 | 83.8 | 2235.2 | 268.3 |
| Sair tərəvəz bitkiləri-cəmi | 17.3 | 17.3 | 145.7 | 84.2 |
| ondan: Qabaq | 2.1 | 2.1 | 19.3 | 92 |
| Badımcan | 5.2 | 5.2 | 41.6 | 80 |
| Şirinbibər | 3.2 | 3.2 | 24.3 | 76 |
| Acıbibər | 3.3 | 3.3 | 25.1 | 76 |
| Turp | 3.5 | 3.5 | 35.3 | 101 |
| Bostan bitkiləri-cəmi | 32.6 | 32.6 | 357.4 | 109.6 |
| o cümlədən,Qarpız | 19.2 | 19.2 | 220.8 | 115 |
| Yemiş | 13.4 | 13.4 | 136.7 | 102 |

| | | | | |
|---|---|---|---|---|
| Kartof, tərəvəzvə bostan bitkilərinin cəmi | 193 | - | - | - |
| Açıqvə örtülü torpaq sahələrindən tərəvəz toplanmışdır | - | - | 26692.8 | - |
| Keçən ilin payızlıq əkininidə daxiletməklə cariilin örtüksüz çoxillikotları - cəmi | 20 | - | - | - |
| o cümlədən istifadə olunub; a) quru ot üçün | - | 20 | 96 | 48 |
| Keçənillərdə əkilmiş çoxillikotlar – cəmi | 379.4 | - | | |
| o cümlədən istifadə olunub; a) quru ot üçün | - | 379.4 | 1821.1 | 48 |
| Cəmiyemlikbitkilər | 399.4 | - | - | - |

| Kənd təsərrüfatı bitkilərinin adı | İl ərzində yeni salınmış bağlar, hektar | Əkmələr, hektar | | Məhsulyığımı, ton | | Məhsuldarlıq sentner/hektar |
|---|---|---|---|---|---|---|
| | | cəmi | Ondan meyvəverən yaşda | cəmi | Ondan meyvəverən yaşda | |
| Alma | | 7.5 | 7.2 | 60 | 60 | 83.3 |
| Armud | | 5 | 4.8 | 41.5 | 41.5 | 86.4 |
| Heyva | | 3.5 | 3.4 | 34.6 | 34.6 | 101.9 |
| Şaftalı | 0.2 | 3.1 | 2.9 | 20.1 | 20.1 | 69.1 |
| Ərik | | 9.3 | 8.5 | 81.8 | 81.8 | 96.3 |
| Gilas | | 4.3 | 4.2 | 29.6 | 29.6 | 70.5 |
| Albalı (gilənar) | | 5.2 | 5.1 | 34.3 | 34.3 | 67.3 |
| Gavalı | | 3.6 | 3.5 | 34.6 | 34.6 | 98.7 |
| Alça | 0.2 | 3.1 | 2.9 | 27.4 | 27.4 | 94.5 |
| Qoz | 0.1 | 1.7 | 1.5 | 3.6 | 3.6 | 24.3 |
| Fındıq | | 4.3 | 4.1 | 12 | 12 | 29.3 |
| Nar | 0.1 | 7.9 | 7.5 | 82.2 | 82.2 | 109.5 |
| Xurma | 0.1 | 3.1 | 2.9 | 36.3 | 36.3 | 125.0 |
| Əncir | | 3.9 | 3.8 | 42.6 | 42.6 | 112.0 |
| Zoğal | | 1.3 | 1.3 | 8.6 | 8.6 | 66.5 |
| Əzgil | | 1.5 | 1.3 | 9.1 | 9.1 | 70.0 |
| Giləmeyvəlilər-cəmi (çiyələkvə s.) | | 0.7 | 0.7 | 18.4 | 18.4 | 262.4 |
| Bağlar və giləmeyvəliklərin cəmi | | | | | | |
| Tut (meyvə üçün), ədədlə | 10 | 150 | 100 | 18,4 | 18,4 | 1,8 |
| Çəkil əkmələri (yarpaq üçün) | - | 18 | | - | - | - |
| Dəfnə ağacı, ədədlə | 4 | 9 | | | | - |

Taxılın məhsuldarlığı 16,2 sentner, o cümlədən buğda 16,0 sentner, arpa isə 19,0 sentnerdən, kartof 92,0 sentner, tərəvəzin məhsuldarlığı isə 205,1 sentnerdən və 576,7 ton meyvə əldə edilmişdir. Görülən işlərlə yanaşı rayonda əhali tərəfindən 50 qutu (950 qram) ipəkqurdu toxumu bəslənilmişdir. Tədarük edilən 1914 kiloqram barama "Azəripək" MMC-yə təhvil verilmişdir.

2020-ci ilin məhsulu üçün 8450 hektar taxıl əkilmişdir ki, ondan da 7300 hektar buğda və 1150 hektar arpa səpini işləri yerinə yetirilmişdir.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı heyvandarlıq məhsullarının istehsalı aşağıdakı kimi olmuşdur.

| Göstəriçilər | 2020-ci il | 2019-cu il | 2020-ci ilin 2019-cu ilə nisbəti, %-lə |
|---|---|---|---|
| **Bütün təsərrüfat kateqoriyaları üzrə** | | | |
| Ət (diri çəkidə, sentner) cəmi | 8144 | 7966 | 102,2 |
| o cümlədən: | | | |
| inək əti | 3405 | 3314 | 102,7 |
| qoyun əti | 3541 | 3462 | 102,3 |
| quş əti | 1198 | 1190 | 100,7 |
| Süd (fiziki çəkidə, sentner) cəmi | 25911 | 25413 | 102 |
| o cümlədən: | | | |
| inək südü | 24513 | 24106 | 101,7 |
| qoyun südü | 1398 | 1307 | 107 |
| Yumurta (min ədəd) | 465 | 447 | 104 |
| Yun (fiziki çəkidə, sentner) | 163 | 158 | 103,2 |

Hal-hazırda rayonda mövcud mal-qaranın sayı 2298 baş, qoyun və keçinin sayı 18280 baş, bütün növdən olan quşların sayı 26558 baş təşkil edir. Son illərdə mal-qaranın baş sayının artım və azalma dinamikası aşağıdakı kimi olmuşdur.

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İri buynuzlu mal-qara | 1808 | 1870 | 1946 | 2163 | 2014 | 1966 | 2035 | 2159 | 2363 | 2126 | 2298 | 2529 |
| İnək və camış | 797 | 869 | 881 | 937 | 1010 | 1042 | 1073 | 1117 | 1194 | 1022 | 1014 | 1129 |
| Qoyun və keçi | 19639 | 18813 | 12519 | 14525 | 14072 | 14015 | 15200 | 16004 | 21396 | 20228 | 18280 | 19835 |

**İri buynuzlu mal qara**




**Qoyun və keçilər**



**Demoqrafik göstəricilər üzrə-** 2020-ci il 01 yanvar vəziyyətinə rayon əhalisinin sayı 44112 nəfərə çatmışdır ki, onlardan da 12747 nəfərini milliyətcə azərbaycanlı olan məcburi köçkün əhali təşkil edir.Rayon əhalisinin sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 32 nəfər başqa sözlə 0,1 % artmışdır.Rayonun azərbaycanlı əhalisinin sayında isə 32 nəfər artım müşahidə olunmuşdur.2021-ci ilin yanvar ayının 1-i vəziyyətinə görə rayonun azərbaycanlı əhalisinin sayı 12747 nəfərə çatmışdır.Bu rəqəm 2020-ci il yanvar ayının 1-i vəziyyətinə 12715 nəfər təşkil etmişdir.Beləliklə son 1 ili müqayisə etdikdə rayon əhalisinin sayında 32 nəfər artım müşahidə olunmuşdur.Bundan başqa 2020-2021-ci il ərzində Xocavənd rayonunda 160 nəfər doğum, 89 nəfər ölüm, 97 nəfər gəlmə,132 nəfər isə getmə olmuşdur.Yeni nikaha girənlərin sayı 11,nikahların pozulması halı isə 5 nəfər olmuşdur.

Xocavənd rayonu üzrə 2020-2021-ci il üçün əhalinin sayı ,təbii artımı və miqrasiya artımı aşağıdakı cədvəldə öz əksini tapmıdır.

| s/s | Kənd İnzibati Ərazi Dairələrinin adı | 01.01.2020-ci il | | o cümlədən | | | | 01.01.2021-ci il | | il üzrə | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ev təsərrüfatları və əhalinin sayı | | Doğum | Ölüm | Gəlmə | Getmə | Ev təsərrüfatları və əhalinin sayı | | Nikah | Nikahın pozulması |
| | **1** | **2** | | **3** | **4** | **5** | **6** | **7** | | **8** | **9** |
| 1 | Xocavənd | 567 | 2329 | 39 | 17 | 16 | 31 | 571 | 2336 | 7 | 1 |
| 2 | Əmirallar | 529 | 2080 | 29 | 15 | 12 | 14 | 530 | 2092 | 2 | 0 |
| 3 | Qaradağlı | 483 | 1879 | 29 | 13 | 7 | 10 | 489 | 1892 | 1 | 0 |
| 4 | Tuğ | 360 | 1542 | 6 | 9 | 15 | 36 | 384 | 1518 | 0 | 0 |
| 5 | Muğanlı | 364 | 1485 | 13 | 15 | 13 | 19 | 379 | 1477 | 0 | 0 |
| 6 | Kuropatkin | 309 | 1264 | 19 | 10 | 7 | 5 | 313 | 1275 | 1 | 4 |
| 7 | Axullu | 254 | 1015 | 22 | 6 | 4 | 4 | 260 | 1031 | 0 | 0 |
| 8 | Salakətin | 134 | 501 | 2 | 1 | 5 | 6 | 133 | 501 | 0 | 0 |
| 9 | Günəşli | 109 | 388 | 1 | 3 | 16 | 3 | 109 | 399 | 0 | 0 |
| 10 | Xətai | 71 | 232 | 0 | 0 | 2 | 4 | 71 | 226 | 0 | 0 |
| **Azərbaycanlı əhali** | | **3180** | **12715** | **160** | **89** | **97** | **132** | **3239** | **12747** | **11** | **5** |

Əvvəlki illərin müvafiq dövrləri ilə müqayisəli olaraq demoqrafik göstəricilər aşağıdakı kimidir.



**İnzibati xətalar üzrə**- 2020-ci ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 190 inzibati xəta aşkar edilmişdir ki, bu da 2019-ci ilə nisbətən 2,3 dəfə çox olmuşdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 190 nəfər təşkil etmişdir. Onlardan Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada Döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə 8 nəfər, Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantinrejimlərinin pozulmasına görə 39 nəfər, Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə 1 nəfər, Xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə 1 nəfər, yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş taxoqrafla yerinə yetirilməsinə görə 27 nəfər, Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulmasına görə 2 nəfər, Təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarə etməyə görə 2 nəfər, Nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə 22 nəfər, Nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 5 nəfər, Nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarəetmə hüququ olmayan şəxsə verilməsinə görə 9 nəfər, Nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə nəqliyyat vasitəsini dövlət qeydiyyatından keçirmədən idarə etməyə və ya dövlət qeydiyyatından keçirilmiş nəqliyyat vasitəsi icarə və ya digər əşya hüquqlarına dair müqavilə (notarius tərəfindən təsdiq edilən müqavilələr istisna olmaqla) əsasında başqa şəxsə verildikdə onu təkrar dövlət qeydiyyatından keçirməməyə, yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə öhdəçiliyə əməl etməməyə və ya nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsinin rəsmiləşdirilməsi və ya girov qoyulması qaydalarını pozmağa görə 40 nəfər, Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına görə 9 nəfər, Hüquqi şəxsin mülkiyyətində və ya istifadəsində, yaxud dövlət qurumunun istifadəsində olan nəqliyyat vasitəsini inzibati xətanın törədilməsi zamanı idarə etmiş fiziki şəxs haqqında məlumatın səlahiyyətli orqanın (vəzifəli şəxsin) bu barədə sorğusu daxil olduğu vaxtdan 5 gün müddətində verilməməsinə görə 1 nəfər, Qanunsuz küçə ticarəti, yəni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə 1 nəfər, Xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə 5 nəfər, Fövqəladə vəziyyət rejiminin tələblərinin pozulmasına görə 4 nəfər, fövqəladə vəziyyət rejimi tətbiq edildiyi əraziyə gediş-gəlişin xüsusi rejiminin və bu ərazidə hərəkət sərbəstliyinin məhdudlaşdırılmasının pozulmasına görə 5 nəfər, Mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində və digər ictimai yerlərdə gecə vaxtı saat 24-dən 7-dək səs-küy salmağa, ucadan mahnı oxumağa, musiqi alətlərini ucadan çalmağa, televizorları, radioqəbulediciləri, maqnitofonları və digər aparatları gur səslə oxutmağa, məişət səs-küyünə qarşı mübarizə tələblərini başqa üsulla pozmağa görə 1 nəfər, Məhkəmə və ya digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu

müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzrsüz səbəbdən icra edilməməsinə görə 1 nəfər, Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların və bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsinə görə inzibati cərimə istisna olmaqla, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə 5 nəfər, Bilə-bilə yalandan yanğından mühafizə və polis orqanlarını, təcili yardım və ya digər ixtisaslaşdırılmış xidmətləri çağırmağa görə 1 nəfər, Müvafiq icra hakimiyyəti orqanından xüsusi icazə almış şəxslər tərəfindən mülki silahın və ya onun üçün döyüş sursatının saxlanılması, daşınması və ya satılması qaydalarının pozulmasına görə 1 nəfər olmaqla inzibati xəta qeydə alınmışdır.

Hesabat dövründə barəsində inzibati tənbeh tətbiq edilmiş 190 nəfərdən xəbərdarlıq edilənlər 6 nəfər, cərimə olunanlar 86 nəfər, ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 1 nəfər olmuşdur. Cərimə edilən 86 nəfərdən ümumilikdə 10535 manat məbləğində cərimə ödənilmişdir.

**Təhsil üzrə-** Ümumtəhsil məktəblərdə 2020/2021 tədris ilində rayonda 16 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 3 ibtidai, 2 ümumi orta, 11 tam orta məktəb olmuşdur. Ümumtəhsil məktəblərində 2200 nəfər şagird təhsil alır ki, onların da 24 nəfəri (1,1%) ibtidai məktəblərin, 42 nəfəri (1,9%) ümumi orta məktəblərin, 2134 nəfər (97,0%) şagird tam orta məktəblərin payına düşür.

| | **2005 2006** | **2010 2011** | **2015 2016** | **2017 2018** | **2018 2019** | **2019 2020** | **2020 2021** |
|---|---|---|---|---|---|---|---|
| **Əyani ümumi təhsil müəssisələrinin sayı** | 20 | 17 | 17 | 16 | 16 | 16 | 16 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 5 | 4 | 4 | 2 | 3 | 3 | 3 |
| ümumi orta | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| tam orta | 13 | 11 | 11 | 11 | 11 | 11 | 11 |
| **Əyani ümumi təhsil müəssisələrində şagirdlərin sayı, nəfər** | 2160 | 1954 | 1921 | 2067 | 2026 | 2072 | 2200 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 95 | 54 | 37 | 27 | 24 | 27 | 24 |
| ümumi orta | 127 | 65 | 47 | 42 | 42 | 38 | 42 |
| tam orta | 1938 | 1835 | 1837 | 1998 | 1960 | 2007 | 2134 |
| Əyani ümumi təhsil müəssisələrində qızların sayı, nəfər | 1001 | 882 | 857 | 948 | 894 | 933 | 977 |
| Müəllimlərin sayı, nəfər | 354 | 315 | 311 | 266 | 266 | 376 | 296 |

Ümumtəhsil müəssisələrində İnformasiya və kommunikasiya texnologiyalarından və onlardan istifadə edilməsi haqqında məlumat aşağıdakı kimi olmuşdur.

| | Cəmi | Ibtidai Məktələrdə | Ümumi orta məktəblərdə | Tam orta məktəblərdə |
|---|---|---|---|---|
| Kompüterləri olan məktəblərin sayı: | 12 | - | 1 | 11 |
| Cəmi | 12 | - | 1 | 11 |
| Onlardan İnternetə çıxışı olanlar | 6 | - | - | 6 |
| Kompüterlərin sayı | 85 | - | 1 | 84 |
| İnternetə qoşulan kompüterlərin sayı | 37 | - | - | 37 |
| Müəssisələrdə internetdən istifadə etmiş şagirdlərin ümumi sayı | 419 | - | - | 419 |
| Lokal şəbəkənin mövcudluğu | 4 | - | - | 4 |
| Elektron poçtun mövcudluğu | 7 | - | | 7 |
| Kompüter siniflərinin sayı | 5 | - | - | 5 |

Rayonun ümumtəhsil məktəblərində 584 nəfər çalışır və onların da 431 nəfərini və ya 73,8%-ni qadınlar təşkil edir. Müəllimlərin sayı (məktəb rəhbərlərindən başqa) 296 nəfər olmuşdur. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əmək haqqı 466,4 manat təşkil etmişdir.

**Mədəniyyət və Turizm üzrə-** Rayon əhalisinə 15 klub və mədəniyyət evləri, 6 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim şöbəsi işçilərinin sayı 151 nəfər olmaqla orta aylıq əmək haqqı 447,2 manat təşkil etmişdir. İşçilərinin 96 nəfəri (63,0%) qadınlardır.

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mədəniyyət (ilin sonuna) Kütləvi kitabxanaların sayı, | 20 | 19 | 13 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| Onlardan kitab fondu ,min nüsxə ilə | 39.9 | 40,2 | 41,3 | 42.0 | 42.5 | 43,1 | 44,9 | 45,8 | 46,1 |
| Əhalinin hər 1000 nəfərinə | 945 | 948 | 949 | 979 | 985 | 993 | 1030 | 1046 | 1058 |
| Klub müəssisələrinin sayı | 20 | 20 | 20 | 15 | 15 | 15 | 15 | 15 | 15 |

**Səhiyyənin göstəriciləri üzrə-** Rayon Mərkəzi xəstəxanasında ümumilikdə 264 nəfər fəaliyyət göstərir. Xəstəxanada 18 həkim, əməyin gigiyenası üzrə tibb bacıları 138 nəfər, orta tibb heyəti 84 nəfər, 24 nəfər isə digər peşələr üzrə olmaqla işçi heyəti çalışır. Səhiyyə İşçilərinin 229 nəfəri (82,2%) qadınlardır.
Onların orta aylıq əmək haqqı 664,6 manat təşkil etmişdir.

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, nəfər | 31 | 33 | 34 | 31 | 31 | 30 | 29 | 25 | 22 | 18 | 18 |
| Orta tibb heyətinin sayı, | 104 | 116 | 106 | 103 | 103 | 104 | 100 | 100 | 159 | 148 | 138 |
| Xəstəxana müəssisələrinin sayı | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xəstəxana çarpayılarının sayı | 180 | 18 0 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 |
| Əhaliyə ambulatoriya - poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 |

**Pensiya təminatı-** Rayonda 1061 nəfər pensiyaçı qeydiyyatda olmuş və onlara təyin edilmiş aylıq pensiyaların orta məbləği 263,2 manat təşkil etmişdir. Pensiyaçıların sayından 169 nəfəri işləyənlərdir.

| | Cəmi | Onlardan işləyənlər |
|---|---|---|
| Cəmi pensiyaçılar - nəfər | 1061 | 169 |
| O cümlədən yaşa görə | 519 | 71 |
| əlilliyə görə | 512 | 98 |
| Ailə başçısını itirməyə görə | 30 | -- |
| Pensiyaların orta məbləği - manat | -- | 263,2 |

| | |
|---|---|
| Əhaliyə dövlət tərəfindən verilən ayrı-ayrı müavinətlər | 9 |
| Uşağın anadan olmasına görə birdəfəlik müavinət | - |
| 3 yaşına çatmayan uşaqlara qulluqla əlaqədar müavinət | - |
| Dəfin üçün müavinət | 9 |
| Müavinətin orta məbləği | 600,0 |

| 01.01. 2021-ci il tarixə təyin olunmuş sosial müavinətlər | Sosial müavinat alanlar (nəfərlə) | Bir nəfərə düşən aylıq məbləğ (manatla) |
|---|---|---|
| Cəmi | **930** | **111,45** |
| O cümlədən:<br>Yaşa görə | 47 | 130,0 |
| Əlilliyə görə | 169 | 123,96 |
| Sağlamlım imkanları məhdud 18 yaşadək uşaqlara | 67 | 150,0 |
| Ailə başçısını itirilməsinə görə müavinət alanlar | 31 | 80,0 |
| Kommunal nəqliyyat və digər xidmətlərə görə | 6 | 12,0 |
| 1 yaşadək uşağı olan ailələrə | 9 | 55,0 |
| Yetim və valideyin himayəsindən məhrum olmuş uşaqların qəyyumları | -- | -- |
| Qarabağ əlillərinə | 18 | 232,22 |
| Hərbi xidmət zamanı əlil oanlar | 1 | 230,0 |
| Şəhid ailələrinə | 57 | 300,0 |
| Qarabağ müharibəsi veteranları | 525 | 80,0 |
| **Birdəfəlik müavinət təyin olunanların sayı** | **80** | **202,17** |
| O cümlədən:<br>Uşağın doğulmasına görə müavinət alan ailələrin sayı | 77 | 200,0 |
| Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslər | 2 | 237,0 |
| Dəfn üçün müavinət | 1 | 300,0 |

**İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə olan məlumata əsasən** 2021-ci il yanvar ayının 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1434 nəfər olmuş, onlardan kənd təsərrüfatında 38 nəfər, emal sənayesində 12 nəfər, su təchizatında 79 nəfər, ticarətdə 24 nəfər, nəqliyyat və anbar təsərrüfatında 36 nəfər, peşə, elmi və texniki fəaliyyət göstərənlər 21 nəfər, dövlət idarəetməsində 215 nəfər, təhsildə 584 nəfər, istirahət, əyləncə və incəsənət sahəsində 151 nəfər, səhiyyə xidmətində 264 nəfər, iqtisadiyyatın digər sahələrində 10 nəfər fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 2,7%-i kənd təsərrüfatında, 0,9%-i emal sənayesində, 5,5%-i su təchizatında, 1,7%-i ticarətdə, 2,5%-i nəqliyyat və anbar təsərrüfatı, 1,5%-i peşə, elmi və texniki fəaliyyət, 15,0%-i dövlət idarəetməsində, 40,6%-i təhsildə, 10,6%-i istirahət, əyləncə və incəsənət sahəsində, 18,3%-i səhiyyə xidmətində, 0,7%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2020-c ildə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 506,6 manat olmuşdur.

**Yeni iş yerləri-** Cari ilin 01 yanvar vəziyyətinə rayonda 36 yeni iş yeri açılmışdır Onlardan yeni yaradılmış müəssisə və təşkilatlarda 2 nəfər, mövcud müəssisə və təşkilatlarda 12 nəfər 22 nəfər isə isə fiziki şəxslərdə olmuşdur. Xocavənd Rayonu üzrə 2020-ci ilin əvvəlindən yeni açılmış iş yerləri haqqında məlumatlar aşağıda göstərilən cədvəldəki kimi olmuşdur.

| Göstəricilərin adı | Sətrin №-si | İlin əvvəlindən(vahid) |
|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 01 | 36 |
| Daimi iş yerləri | * | 36 |
| Yeni yaradılmış müəssisə və təşkilatlarda | 02 | 2 |
| Mövcud müəssisə və təşkilatlarda | 03 | 12 |
| Fiziki şəxslərdə | 05 | 22 |

Xocavənd Rayon büdcəsinin gəlirləri 2020-ci ilin yanvar-dekabr aylarında 1038,4 min manat təşkil edilmişdir. Büdcənin gəlirləri keçən ilin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.




**Xocavənd Rayon Statistika İdarəsinin rəisi** **Fərnad Tahirov**

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**XOCAVƏND RAYON STATİSTİKA İDARƏSİ**

**2020-ci ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial-iqtisadi inkişafa dair təhlil**

# *M Ə R U Z Ə S İ*

# M Ü N D Ə R İ C A T

Ümumi məhsul buraxılışı ------1

Sənaye    ------------------------ 1-2

Nəqliyyat və anbar  ------------ 2

Ticarət  --------------------------- 2

Kənd təsərrüfatı  ---------------- 2-3-4-5

Demoqrafiya  -------------------- 6

İnzibati xəta ---------------------- 7-8

Təhsil  ----------------------------- 8-9

Mədəniyyət və Turizm ---------- 9

Səhiyyə  --------------------------  9-10

Pensiya təminatı  ----------------- 10

Məşğulluq  ------------------------ 10

Yeni açılmış iş yerləri  ----------  11

Büdcənin gəlirləri  ---------------  11